**1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür**



# Uşaqların dünyası, dünyamızın uşaqları

**Bu gün bayramdır. Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da qeyd edilir. Uşaqları sevindirmək, onların üzünü güldürmək, istək və arzularını yerinə yetirmək biz böyüklərin mənəvi borcudur.**

Amma, təəssüf ki, bəzən qayğısız, xoşbəxt gülüşləriylə dünyanın dodağında təbəssüm olmağa gələn uşaqlar amansız müharibələrin qurbanı olurlar. Dünyanın bir çox yerlərində alovlanan müharibə ocaqları minlərlə körpənin ölümünə, şikəst və sahibsiz qalmasına səbəb olur.

Erməni qəsbkarlarının Azərbaycan torpaqlarında ərazi iddiası ilə törətdikləri qətliamlar vaxtilə nə qədər körpəmizi açılmamış qönçə kimi soldurdu. Yüzlərlə uşaq valideynsiz qaldı, talelərinə istər fiziki, istərsə də mənəvi şikəstlik damğası vuruldu. Dövlətimizin qayğısı yaralarına məlhəm olsa da, bu ağrını daşımaqdan tam qurtula bilmədilər. Bəzisi ana nəvazişinin, bəzisi ata güvəncinin nə olduğunu unutdu. Əvəzində çadır evlərin bumbuz ögeyliyini yaşadılar. Və beləcə ürəklərində nisgil, gözlərində düşmənə nifrətlə böyüdülər.

Hələ gözünü dünyaya açar-açmaz düşmən gülləsinə tuş gələnlər... Alxanlıdan olan Zəhranı kimsə unudubmu? Əsla, yox! Azyaşlı Zəhra Quliyevanın ermənilər tərəfindən qətlə yetirilməsindən 6 il ötür. 2017-ci il iyulun 4-də minaatanlardan və dəzgahlı qumbaraatanlardan açılan atəş Zəhranın körpə həyatına son qoymuşdu. Həmin vaxt ermənilərin Alxanlıda törətdiyi qanlı cinayət dünya ictimaiyyətinin kəskin qınağına səbəb olmuşdu. Ermənistanın bu addımı kəskin pislənilmişdi...

Amma bütün bunlar ikiyaşlı Zəhranı geri qaytarmadı. Gül kimi körpə açılmadan soldu. Nə böyüdü, nə uşaqlara qoşulub bağçaya getdi, nə də əli şagird çantasına yetdi.

Bu gün bayram günü olmasına baxmayaraq, belə ağrılar unudulmur. Hiddətlə deyirik ki, vaxtsız, özü də düşmən əli ilə olan ölümlərə son qoyulmalıdır. Balalar xoşbəxt yaşamalıdırlar və yaşayacaqlar. Bayramları istədikləri məkanda, istədikləri kimi qeyd edə biləcəklər. Çünki Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev torpaqlarımızı işğaldan azad etməklə yanaşı, ölkədə uşaqların sağlam və xoşbəxt böyümələri üçün gözəl şərait də yaradıb.



Heç vaxt qeyd etmədiyin bayramın mübarək, Zəhra bala...

**"Xalq qəzeti"**